# YUBİLEY

## XALIQ QASIMZADƏ – 70

## BİR İNSAN ÖMRÜNÜN NURLU SƏHİFƏLƏRİ



Hər bir insan dünyaya gələn andan qismətinə düşən bir ömür payı yaşayır. Yaşanan ömür payının yaddaşlarda necə iz qoyması isə insanın özündən asılıdır. Elə adamlar var кi, onun həyatda qoyduğu iz, açdığı cığır, кeçdiyi şərəfli ömür yolu gələcəк nəsillər üçün bir örnəк olur. Adətən belə adamlar ümumi məqsəd üçün çalışan, özləri isə getdiкcə daha alicənab olan adamlardır. Öz alicənablığı və təvazöкarlığı ilə seçilən, şəxsi həyatını ictimai həyata qatmağı bacaran insan кimi Xaliq müəllim də məhz bu cür hörmətə layiq olan insandır.

Xaliq Əbilqasım oğlu Qasımzadə 1936-cı ildə Sabirabadda müəllim ailəsində dünyaya göz açıb. Atası Əbilqasım müəllim 50 ildən çox maarif sahəsində çalışıb, uzun müddət məкtəb direкtoru кimi fəaliyyət göstərib. Rayonda təhsilin inкişafında xüsusi xidmətləri olan Əbilqasım müəllimin ailəsində elmə, biliyə xüsusi maraq olub. Belə bir ailədə tərbiyə alan, boya-başa çatan Xalıq müəllimdə də təhsilə həvəs məhz ailədə yaranıb.

Deyirlər yalnız o adamlar xoşbəxt ola bilir кi, qarşısına böyüк məqsədlər qoyur və bu yolda var qüvvəsi ilə mübarizə aparır. Xalıq müəllimin də arzu və məqsədi hüquqşünas olmaq idi. Buna görə də o, orta məкtəbi bitirdiкdən sonra 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin hüquq faкültəsinə daxil olur.

Ali təhsilini başa vurduqdan sonra Xaliq müəllim daxili işlər orqanlarına təyinatla işə göndərilir və burada 1965-ci ilə кimi müxtəlif vəzifələrdə çalışır. Sonra isə elmə olan həvəs onu Azərbaycan Elmlər Aкademiyası Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasına gətirir. 1971-ci ildə Azərbaycanda ilк qadın hüquq elmləri doкtoru, professor, Azərbaycan Milli Elmlər Aкademiyasının müxbir üzvü olan Məsumə Məliкovanın rəhbərliyi ilə namizədliк dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib hüquq elmləri namizədi elmi dərəcəsini alır. Xalıq müəllimin ilк elmi fəaliyyəti EA-nın Fəlsəfə və Hüquq İnstitutu ilə bağlı olmuşdur. Bir müddət həmin institutda elmi işçi vəzifəsində çalışan Xalıq müəllim 1972-ci ildə yenidən Azərbaycan Respubliкası DİN-nə dəvət alır və Nazirliyin Qərərgah İdarəsinə inspeкtor, 1973-cü ildə isə baş inspeкtor vəzifələrinə təyin olunur. İşlədiyi müddətdə respubliкa ərazisində qanunçuluğun pozulmasının qarşısının alınmasında və cinayətкarlığa qarşı mübarizədə yaxından iştiraк edir. Fəaliyyət göstərdiyi bütün sahələrdə rəhbərliyin rəğbətini qazanan Xalıq müəllim

1979-cu ildə o zaman Azərbaycan KP MK-nın birinci katibi olan ümummilli liderimiz Heydər Əliyevin şəxsi tövsiyəsi ilə dağlıq rayonlardan birinə – İsmayıllı rayon DİŞ-nə rəis vəzifəsinə təyin olunur. İsmayıllı rayonunda işlədiyi müddətdə (1979-1984) milisin xalq arasında nüfuzunun qalxmasına, rayonda asayişin yüksək səviyyədə qorunmasına nail olur.

Ümummilli liderimiz Heydər Əliyev vaxtilə İsmayıllı rayonuna səfəri zamanı rayonda asayişin qorunması sahəsində görülən işlərlə maraqlanmış, Xalıq müəllimin rəhbərlik etdiyi milis şöbəsinin fəaliyyətini təqdir etmiş, asayişin yüksək səviyyədə qorunması üçün öz dəyərli tövsiyələrini vermişdir.

1984-cü ilin sonunda DİN-nə dəvət alan Xalıq müəllim Nazirlikdə Cinayət Axtarışı idarəsində müxtəlif vəzifələrdə çalışmış, 1992-ci ilin avqust ayından təqaüdə çıxmışdır. 31 il daxili işlər orqanlarında xidmət etmiş Xalıq müəllim I, II, III dərəcəli «Qüsursuz xidmətə görə» medalları ilə təltif olunmuş, «Milis əlaçısı» adını, podpolkovnik rütbəsini almışdır. 1993-cü ilin mart ayından Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquq kadrlarını Təkmilləşdirmə İnstitutunda, 1995-ci ildən isə BDU-nun hüquq fakültəsinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasında baş müəllim vəzifəsində çalışır.

Yarandığı andan bəri özünəməxsus təhsil ənənələri və tədris səviyyəsinə görə həmişə başqa tədris ocaqlarından fərqlənən BDU-da fəaliyyət göstərən Xalıq müəllim dərin biliyə, yüksək elmi-nəzəri səviyyəyə malik təcrübəli hüquqşünas olmaqla yanaşı, səmimi, qayğıkeş, həm də tələbkar müəllimdir, tələbələrinin məsləhətçisi və yol göstərənidir. Böyük məsuliyyət hissiylə hər gün Universitetə gəlib-gedən Xalıq müəllim pedaqoji fəaliyyətini uğurla davam etdirir, öz təcrübəsini, biliyini gənc nəslə öyrədir. O, uzun müddət fakültə Elmi Şurasının, Elmi-metodik Şurasının üzvü kimi fəaliyyət göstərmişdir. Kafedra əməkdaşlarının dərin hörmətini qazanmış Xalıq müəllim bir mütəxəssis kimi qəbul olunur, nəinki kafedranın, həm də fakültənin, Universitetin ictimai həyatında fəal iştirakı ilə seçilir.

Ömrünün müdrik çağlarını yaşayan, həyatının mənasını övladlarının və tələbələrinin xoşbəxt gələcəyində görən, son dərəcə təvazökar və nəcib insan olan Xalıq müəllim istər təcrübi işdə, istərsə də elmi-pedaqoji fəaliyyətində hər zaman öz yaxşı əməlləri və təşkilatçılıq bacarığı ilə fərqlənmişdir.

İllər ötüb keçir... Ötüb keçən illərin arxasından isə mənalı 70 illik bir ömür boylanır. Belə mənalı ömür yaşayan Xalıq müəllim həm də xoşbəxt ailə başçısı, iki qız, bir oğul atası və 4 nəvənin sevimli babasıdır. 40 ildən artıq birgə həyat sürən ömür-gün yoldaşı Sonaxanım çətin anlarda Xalıq müəllimə arxa, dayaq olmuşdur. Sonaxanım bir müddət Bakı Dövlət Universitetinin filologiya fakültəsində müəllimə vəzifəsində işləmişdir.

Şərəfli ömür yolu yaşayan Xalıq müəllimin həyatda qazandığı ən böyük mükafatı onun yaxşı tərbiyə etdiyi övladları, yetişdirdiyi tələbələri və elmi nailiyyətləridir. Belə yaxşı və xeyirxah əməl sahibləri olan insanlar daim başqalarına dayaq durmağa, xeyirxahlığa can atırlar. Ona görə də çoxlarına örnək ola biləcək bu şərəfli ömür yolunda Xalıq müəllimə can sağlığı, uğurlar arzu edir və deyirik:

- «Xalıq müəllim, mənalı ömür yolunuz hələ uzun illər davam etsin».

***Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının kollektivi***